www.amu.edu.az

# TƏBİB

№-22 (1805) 29 dekabr 2024-cü il

Qəzet 1933-cü ildən çıxır

Təsisçi: Azərbaycan Tibb Universiteti

**DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL BAYRAMINIZ MÜBARƏK!**



## İki ixtisas üzrə ilk dəfə magistr məzunların buraxılışı olub

**Rektor, professor Gəray Gəraybəyli: Hər yenilikdə müəyyən çətinliklərlə üzləşsək də, sonda qürurverici nəticələr əldə etmişik**

səh. 2

### ATU “Kosmik tibbin əsasları” adlı beynəlxalq təlimdə təmsil olunub

səh. 4

### Hərbi tibb fakültəsində rezidentlərin buraxılış mərasimi keçirilib

səh. 5

### “Azərbaycan Tibb Universiteti Jurnalı” yeni formatda yayımlanacaq

səh.7



### Doktorantura və dissertantura şöbəsi Elmi Şurada hesabat verib

Rektor, professor Gəray Gəraybəyli: Hər bir ixtisas üzrə doktorantura təhsil proqramlarının yaradılması zəruridir

səh. 3

### Transxəzər Beynəlxalq HPB Cərrahiyyəsi Assosiasiyası yaradılıb

*Hələlik 6 ölkənin qoşulduğu təşkilatın Azərbaycanda təsis olunması yüksək qiymətləndirilib*

səh. 4

### Bayram süfrəsi insan orqanizmi üçün zərərli yox, faydalı olmalıdır

*Dosent Sevinc Fətullayeva tətil günlərində qidalanma ilə bağlı məsləhətlər verir*

səh. 6



### Rektor "Səmərqənd-2020" olimpiadasının iştirakçıları ilə görüşüb

Olimpiadalarda yüksək nəticə göstərən tələbələr mükafatlandırılacaq

səh.2

# İki ixtisas üzrə ilk dəfə magistr məzunların buraxılışı olub

## Rektor, professor Gəray Gəraybəyli: Hər yenilikdə müəyyən çətinliklərlə üzləşsək də, sonda qürurverici nəticələr əldə etmişik

**Bu il ilk dəfə Azərbaycan Tibb Universitetində (ATU) Mikrobiologiya və Biokimya ixtisasları üzrə magistratura təhsil səviyyəsindən məzun buraxılışı olub. Bu münasibətlə universitet rəhbərliyi ilə yeni ixtisaslar üzrə magistrlərin görüşü keçirilib.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli əvvəlcə bu görüşün əlamətdar bir günə - ölkə prezidenti, cənab İlham Əliyevin doğum gününə təsadüf etdiyini vurğulayıb. O məhz dövlət başçısının apardığı uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın günü-gündən inkişaf etdiyini, ərazi bütövlüyümüzün bərpa olunduğunu və dünya birliyindəki mövqeyimizin yüksəldiyini diqqətə çatdırıb. Rektor ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən təhsil və tibb sahəsində uğurlu islahatların həyata keçirildiyini qeyd edib.

95 yaşlı universitetimizin Mikrobiologiya və Biokimya üzrə ilk magistr məzunlarını təbrik edən professor G.Gəraybəyli, onlara gələcək elmi fəaliyyətlərində uğurlar arzulayıb: "Bu ixtisaslar tibb elminin inkişafı üçün xüsusi önəm daşıdığına görə, magistratura təhsil səviyyəsinin yaradılmasına qərar verilmişdi. İstənilən yeniliyin tətbiqi müəyyən çətinliklərlə başa gəlir. Biz də universitetimizdə tədris prosesinin təkmilləşdirilməsi yönündə bir çox yeniliklər etmişik və əvvəldə müəyyən çətinliklərlə üzləşsək də, daim qürurverici nəticələr əldə etmişik".



Görüşün sonunda ATU-nun rektoru yeni ixtisaslar üzrə ilk məzunlara diplomlarını təqdim edib. Mikrobiologiya və Biokimya ixtisasları üzrə tədris aparan Mikrobiologiya və immunologiya kafedrasının müdiri Həqiqət Qədirova və Biokimya kafedrasının müdiri Gülnarə Əzizovaya isə ATU adından təşəkkürnamələr təqdim olunub.

Məlumat üçün bildirək ki, ümumilikdə 2024-cü il üzrə ATU-da 54 magistr təhsil alıb. Onların 10 nəfəri (5 nəfər Mikrobiologiya, 5 nəfər Biokimya) sözügedən ixtisaslar üzrə ilk məzunlardır.



# Rektor "Səmərqənd-2020" olimpiadasının iştirakçıları ilə görüşüb

## Olimpiadalarda yüksək nəticə göstərən tələbələr mükafatlandırılacaq

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Özbəkistanda keçirilən tibb tələbələrinin "Səmərqənd-2020" adlı V Beynəlxalq Olimpiadasında iştirak edən tələbələrimizlə görüşüb.**

Rektor G.Gəraybəyli olimpiadada ATU-nu layiqincə təmsil edən tələbələri təbrik edib, ölkəmizin və universitetin nüfuzuna müsbət təsir göstərən belə təşəbbüslərin daim alqışlandığını bildirib. Rektor universitetdə elmi tədqiqatların aparılması üçün şəraitin daha da təkmilləşdirilməsi baxımından Tələbə Elmi Cəmiyyətinə marağın böyüdüyünü, tələbələrin araşdırmalara daha çox həvəs göstərdiyini vurğulayıb. Professor G.Gəraybəyli olimpiadalarda iştirak etmiş tələbələr üçün onların əldə etdikləri nəticələrə uyğun olaraq mükafatların təsis olunacağını da diqqətə çatdırıb.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultanova tələbələrin öz elmi işlərini beynəlxalq səviyyəyə çıxara bilməsi üçün ATU-da münbit şərait olduğunu və bu istiqamətdə atılan addımların effektivliyinin daha da artırılacağını bildirib.

Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, t.e.d Müşfiq Həsənov TEC-in xətti ilə tələbələr arasında stimullaşdırıcı tədbirlərin formalaşmasında göstərdiyi dəstəyə görə rektor G.Gəraybəyli bütün tələbələr adından öz minnətdarlığını bildirib.

# I kurs rezidentlərlə görüş təşkil edilib

## Prorektor Nazim Pənahov gəncləri təhsil müddətindən səmərəli istifadə etməyə çağırıb

**Dekabrın 16-da Azərbaycan Tibb Universitetinin I kurs rezidentləri ilə universitetin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov, Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva və şöbənin əməkdaşlarının görüşü olub.**

Professor Nazim Pənahov belə görüşlərin təşkilini təqdir edərək, mütəmadi keçirilməsini arzu edib. Rezidentlərə üz tutaraq bildirib ki, onların əksəriyyəti universitetin məzunlarıdır: "I kurs rezidentlərlə ilk dəfədir görüş keçiririk. Əsas məqsədimiz sizin üzləşdiyiniz problemlərlə maraqlanmaq və aradan qaldırmaq, üzərinizə düşən öhdəlik və vəzifələri diqqətinizə çatdırmaqdır. Bildiyiniz kimi, rezidentura sistemi bizdə 2011-ci ildən etibarən tətbiq olunmağa başlayıb. Bu sistemin geriyə dönüşü yoxdur və hazırda bütün dünyada tətbiq olunur. Artıq rezidenturasız hər hansı ixtisas almaq mümkün deyil. Elə ölkələr var ki, bu təhsil 15, 18, 20 ilədək davam edir. Bizdə də ortalama eləsdir".

Prorektor 2011-ci ildən bu yana rezidentura sahəsində həyata keçirilmiş əsaslı dəyişikliklərdən də söhbət açıb və bildirib ki, bu proses davam etməkdədir: "Müvafiq nazirliyə təkliflər göndərilib və cavab rəyi alınıb. Növbəti mərhələdə Nazirlər Kabinetində baxılacaq. Rezidentura təhsilində alt ixtisaslaşmanın yaradılması təklif olunub. Hazırda köhnə sistem fəaliyyətdədir. Amma gələn ildən yeni sistem tətbiq olunacaq".

N.Pənahov rezidentlərdən gözləntiləri dilə gətirib: "İstəyirik ki, bu pillə sizin nəzərinizdə yalnız hansısa ölkəyə getmək üçün bir tramplin olmasın. Oğlanlara isə hərbi xidmətdən möhlət almaq üçün bəhanəyə çevrilməsin. Ola bilər, bəzileriniz fikirləşir ki, 15-20 il ömrümüzdən boşuna gedir. Amma unutmayın ki, bu illərdə çəkdiyiniz zəhmətin bəhrəsini mütləq görəcəksiniz".

Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva qeyd edib ki, rezidentlər universitetdə təhsil almaqla yanaşı, əmək müqaviləsi də bağlayıblar: "Bağlanan müqavilənin üstünlüyü ondan ibarətdir ki, siz təhsil aldığınız müddət iş stajınıza daxil olunacaq. Yəqin hər birinizin Fərdi İş Planınız var. Bu sizin rezidenturaya daxil olduğunuz və bitirənədək fəaliyyətinizi əks etdirən bir dövlət sənədidir. Bu sənədə gündəlik göstərdiyiniz fəaliyyətlə bağlı qeydlərinizi edirsiniz".

İ.Mustafayeva rezidentlərin əmək intizamına riayət etməsinə də toxunub. Bildirib ki, bütün müəssisələrdə olduğu kimi, universitetimizdə də əmək intizamı əsas tələblərdən biridir. Rezidentlərə onlarla bağlanmış əmək müqaviləsində öz əksini tapmış iş saatlarını dəqiqi bilməyi, səlahiyyət və vəzifələrini lazımınca yerinə yetirməyi tövsiyə edib.





Rezidentura və magistratura şöbəsinin müdir müavini Namiq Xəlilov isə öz çıxışında bildirib ki, ATU-da 837 rezident təhsil alır. DİM xətti ilə 242 nəfər 1-ci kursa qəbul olunub. Onlardan 193 nəfər ATU-da, 50 nəfər kənar bazalarda təhsil alır. Rezidentlərin 13 nəfəri isə əcnəbilərdir. Hər il ənənəvi olaraq kafedralar üzrə çoxsaylı seminar və elmi konfransların təşkil edildiyini bildirən N.Xəlilov rezidentləri bu cür tədbirlərdə fəal iştiraka çağırıb.

**Səmərqənd Dövlət Tibb Universitetində ənənəvi olaraq tibb universitetləri tələbələrinin "Səmərqənd-2020" beynəlxalq olimpiadası keçirilib. Bu mötəbər yarış bu il də yüksək səviyyədə təşkil olunub.**

# Tələbələrimiz Səmərqənddən qalibiyyətlə dönüb



Dekabrın 13-14-də keçirilən olimpiadada Azərbaycan Tibb Universitetinin tələbələri ilə yanaşı, Almaniya, Malayziya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Rusiya, Türkiyə, Ukrayna və Belarus, Cənubi Koreya kimi dünyanın 20-ə yaxın ölkəsinin təmsilçiləri iştirak edib. Olimpiadaya digər tibb universitetlərindən də 730 tələbə oflayn və 4000 tələbə onlayn, xarici tibb müəssisələrinin rektorları, professor və müəllimləri qatılıb. Açılış mərasimində Özbəkistanın səhiyyə naziri Asilbek Xudayarov, ali təhsil, elm və innovasiyalar naziri Konqratbay Şaripov, Səmərqənd Dövlət Tibb Universitetinin rektoru Jasur Rizayev, bir çox xarici tibb universitetlərinin rektorları və Azərbaycan Tibb Universitetindən tibb elmlər doktoru Müşfiq Həsənov çıxış ediblər. Tədbir iştirakçılarını ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından salamlayan M.Həsənov olimpiadanın işinə uğurlar arzulayıb.

Özbək, rus və ingilis dillərində keçirilən beynəlxalq olimpiadanın əsas hissəsində iştirakçılar iki mərhələdə təbabətin 40-dan çox istiqaməti üzrə yarışıb, praktik bacarıqlarını nümayiş etdiriblər. Bundan əlavə, ənənəvi üsulla iştirak edən 730-dan çox tələbə dünya standartlarının tələblərinə cavab verən 7-ci nəsil simulyasiya robotları vasitəsilə öz bilik və bacarıqlarını sınayıb. Olimpiada çərçivəsində Özbəkistanın Əbu Əli İbn Sina adına İctimai Səhiyyə Texniki Kolleci ilə xarici tibb kolleclərinin tələbələri arasında beynəlxalq olimpiada təşkil olunub. ATU Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, Startap və elmi tədbirlərin koordinasiyası şöbəsinin müdiri, tibb elmləri doktoru Müşfiq Həsənovun akademik mobillik proqramı əsasında "Laparoskopik xolesistoektomiyalarda çətin vəziyyətlər zamanı görülən tədbirlər"ə dair mühazirəsi həkimlər və gənc alimlər tərəfindən maraqla dinlənilib.

Olimpiadanın bağlanış mərasimində xüsusi fəallıq göstərən və nominasiya üzrə qalib kimi tanınan iştirakçılar diplom, sertifikat və xatirə hədiyyələri ilə mükafatlandırılıb.

ATU-nun I Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Həmayə Sofiyeva və II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Səbinə Həsənzadə I, II Müalicə-profilaktika fakültəsinin IV kurs tələbələri Həmid Səfərli və Leyla Səfərli, Stomatologiya fakültəsinin III kurs tələbəsi Kəlbi Kəlbiyev və IV kurs tələbəsi Aida Əliyeva III yerə, II Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Zeynəb Əlizadə, İctimai səhiyyə fakültəsinin IV kurs tələbəsi Fatimə Nuriyeva, Əczaçılıq fakültəsinin III kurs tələbəsi Cəmilə Əlizadə və Hərbi tibb fakültəsinin V kurs kursantı Möhsün Quluzadə olimpiadanın diplomuna layiq görülüblər.

# Doktorantura və dissertantura şöbəsi Elmi Şurada hesabat verib

## Rektor, professor Gəray Gəraybəyli: Hər bir ixtisas üzrə doktorantura təhsil proqramlarının yaradılması zəruridir

**Dekabrın 24-də Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının növbəti iclası keçirilib. İclası açan rektor, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələlərin müzakirəsindən öncə möhtərəm prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevi ad günü münasibətilə Azərbaycan Tibb Universitetinin çoxminli kollektivi, o cümlədən professor-müəllim heyəti, tələbələri adından təbrik edib və qalib liderin rəhbərliyi altında Azərbaycan xalqına daha böyük tarixi nailiyyətlər arzulayıb.**

Sonra COP29 beynəlxalq tədbirində əməkdaşlarımızın uğurlu fəaliyyətlərinə görə ölkə başçısının imzaladığı təşəkkürnamələri Elmi Araşdırmalar Mərkəzinin şöbə müdiri, Allerqologiya və immunologiya kafedrasının assistenti Afaq Xəlilovaya və Əcnəbi təhsilalanlarla iş üzrə dekan müavini, Xarici dillər kafedrasının dosenti Nüşabə İsgəndərovaya təqdim edən rektor, iclasın gündəliyini diqqətə çatdırıb.



Əvvəlcə "Azərbaycan Tibb Universitetinin Doktorantura və dissertantura şöbəsində görülən işlərin hesabatı və gənc elmi-tibbi kadrların hazırlanmasının yaxşılaşdırılmasında kollektiv qarşısında duran vəzifələr" barədə adıçəkilən şöbənin müdiri, professor Rizvan Məmmədovun hesabat məruzəsi dinlənilib.

Məruzəçi öz işini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na, eləcə də Səhiyyə Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, AAK-nın müvafiq əmr və təlimat məktublarına əsasən, həmçinin Azərbaycan Tibb Universitetinin rektorunun göstəriş və əmrlərinə uyğun olaraq həyata keçirən şöbənin funksiyaları, vəzifələri və səlahiyyətləri haqda şura üzvlərinə ətraflı məlumat verib.

Azərbaycan Tibb Universiteti üzrə doktorantura və dissertanturaya qəbulun Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 saylı qərarı ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların təsnifatı"na uyğun həyata keçirildiyini xatırladan şöbə müdiri, bu təsnifata əsasən doktoranturaya qəbulun üç istiqamətdə - tibb, biologiya və əczaçılıq üzrə aparıldığını söyləyib.

Son 5 ildə universitet üzrə doktorantura və dissertanturaya qəbul planı, xarici dildən fəlsəfə doktorluğu üzrə qəbul imtahanlarının nəticələri, ATU-ya qəbul olunan, hal-hazırda təhsil alan doktorant və dissertantların, 2011-2019-cu illərdə ayrı-ayrı ixtisaslar üzrə elmi-tədqiqat işləri təsdiq edilən və indiyədək müdafiə etməyən iddiaçıların sayı, doktorant və dissertantların elmi-tədqiqat işlərinin mövzusunun təsdiq edilməsi haqqında statistik məlumatları da şura üzvlərinin diqqətinə çatdıran R.Məmmədov qeyd edib ki, 2023 və 2024-cü illərdə elmlər doktorluğu üzrə doktoranturaya qəbul olmadığına görə bu illər ərzində ancaq fəlsəfə doktorluğu üzrə qəbul aparılıb. 2023-cü ildə 24 nəfər, 2024-cü ildə isə 35 nəfər fəlsəfə doktorluğu üzrə doktorantura və dissertanturaya qəbul olunub. Bir nəfər xarici vətəndaş cərrahiyyə ixtisası üzrə ödənişli əsaslarla təhsil alır.

Hesabat məruzəsində 27 ixtisas üzrə 112 nəfəri fəlsəfə doktorluğu və 54 nəfəri elmlər doktorluğu üzrə olmaqla 166 nəfər doktorant və dissertantımızın olması da öz əksini tapıb: "Bunlardan 14 nəfər fəlsəfə doktorluğu, 4 nəfər isə elmlər doktorluğu üzrə əyani təhsil alır. Bu da ümumi doktorantlarımızın 11%-ni təşkil edir. Ödənişli təhsil alanlar, 13 nəfər fəlsəfə doktorluğu və 7 nəfər elmlər doktorluğu üzrə olmaqla 20 nəfərdir ki, bu da ümumi doktorantların 12%-i qədərdir. Ümumi doktorantlarımızın 61%-i (102 nəfər) qiyabi təhsil alır. 46 nəfər (28%) isə dissertant kimi təhkim olunub. Dissertant kimi təhsil alanların sayı da bir qədər azalıb".

Onun sözlərinə görə, Doktorantura və dissertantura şöbəsinin fəaliyyəti universitetimizin əsas struktur tərkib hissəsi kimi, rektorumuzun apardığı islahatların yerinə yetirilməsinə yönəlib: "Belə ki, müasir dövrdə bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də geniş islahatlar aparılır. Hazırda elmi-tədqiqat sahəsindəki islahatlar universitetlərin də reytinqinə güclü təsir göstərir. Bizim əsas hədəfimiz tədrislə yanaşı, elmi-tədqiqat işlərinə daha da ciddi yanaşmaqla universitetimizin reytinqinin qalxmasına kömək göstərməkdir. Çalışmalıyıq ki, elmi məqalələr daha yüksək statuslu, reytinqli jurnallarda çap edilsin. Elmi işlərin, dissertasiyaların keyfiyyəti daha da yaxşılaşsın, yüksək reytinqli jurnallarda məqalələrin sayı artsın və onlara istinadlar daha da çoxalsın".

Bununla əlaqədar təkliflərini də şura üzvləri ilə bölüşən məruzəçi bildirib ki, elmi rəhbərlər ilk növbədə dissertasiyaların mövzularının elmi-tədqiqat işinə uyğun tərtib edilməsinə nəzarət etməlidir. Annotasiyaların hazırlanması zamanı əsas baza kimi ATU göstərilməli, elmi rəhbərlərin və elmi məsləhətçilərin təyini "Qaydalar"a uyğun olmalıdır. Fərdi iş planlarının yeni standartlara uyğun tərtib edilməsi, onun doldurulmasına elmi rəhbərin nəzarət etməsi də vacib amillərdəndir. İldə 1 dəfə doktorant və dissertantların attestasiyası və fakültə elmi şuralarında hesabatları dinlənilməli, dissertasiya mövzularının təsdiqi zamanı elmi işlərin iki və ya daha çox kafedrayla müştərək hazırlanmasına, dissertasiyaya aid məqalə və tezislərin yüksək reytinqli jurnallarda çap edilməsinə üstünlük verilməlidir".

R.Məmmədov çıxışının sonunda rektor başda olmaqla universitet rəhbərliyinin elmi kadrların daha yüksək peşəkarlığa nail olması üçün Doktorantura və dissertantura şöbəsinə daim diqqət və qayğı ilə yanaşdığını, doktorantlarımızın elmi işlərinin bəzi fraqmentlərinin xarici ölkələrdə aparılmasına dəstək olduğunu deyib: "Azərbaycan Tibb Universitetinin tələbələrinin təxminən 50%-nin xarici ölkə vətəndaşı olduğunu və onların böyük əksəriyyəti ilə tədrisin ingilis dilində aparıldığını nəzərə alsaq, hazırda təhsil alan doktorantlarımızın gələcəkdə tədris prosesində kadr ehtiyaclarını ödəmək baxımından böyük rol oynayacağına əminik".

Bundan sonra çıxış edənlər hesabat məruzəsində toxunulan məsələlərlə bağlı fikirlərini bölüşüblər. I Daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizov doktorant və dissertantların seçimi zamanı onların alim olmaq ehtimalını, eyni zamanda elmi rəhbərlərin doktorant və dissertantlara hansı səviyyədə diqqət göstərməsini nəzərə almağın vacibliyinə diqqət çəkib. Bu baxımdan kafedrada son beş ildə 3 elmlər doktorluğu və 4 fəlsəfə doktorluğunun müdafiə olunduğunu, 2 elmlər doktorluğu işinin isə yekunlaşdığını müsbət nəticə kimi dəyərləndirib.

Universitetimizin elmi potensialının hər zaman yüksək olduğunu deyən Epidemiologiya və tibbi statistika kafedrasının müdiri, professor İbadulla Ağayev kafedranın elmi fəaliyyətində mühüm rolu olan laboratoriyanın bu gün bütün gücü ilə işləməsinin əhəmiyyətindən danışıb.

Kafedra müdirləri Tahir Süleymanov, Ramiz Poluxov və Rəna Əliyeva da çıxış edərək elmi kadr hazırlığının prioritet məsələlərdən biri olduğunu, bu istiqamətdə şöbənin üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıblar. Gələcəkdə görülməli işlərlə bağlı öz təkliflərini də irəli sürən natiqlər, ümumilikdə şöbənin fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibətini açıqlayan rektor, professor Gəray Gəraybəyli mövzu ətrafında ciddi müzakirələrin getməsindən məmnunluğunu vurğulayıb. Elmlər doktorluğu üzrə doktorantura yerlərinin 2-3 ildir açılmamasının səbəblərinə, eləcə də əlaqələndirmə şurasının fəaliyyətinə toxunan rektor bildirib ki, bəzi məsələlər universitetdən asılı deyil.

Müəyyən ixtisaslar üzrə sifarişlər verildiyini, ancaq yerlərin boş qaldığını, müəyyən ixtisaslar üzrə isə sifarişlərin olmadığını söyləyən rektor, bu məsələdə kafedraların üzərinə böyük məsuliyyət düşdüyünü bildirib. Bəzən sifarişlərin doğru prinsiplə verilmədiyini, bu il də müsabiqə olan ixtisaslarla bağlı bəzi kafedra müdirlərinin "bu yer filankəs üçün açılıb" deməsini cəfəngiyyat adlandıran rektor, hər ixtisas üzrə doktorantura təhsil proqramlarının yardılmasının zəruriliyini vurğulayıb. Universitetin rəhbəri 166 nəfər doktorant və dissertantın arasında cəmi bir nəfər xarici vətəndaşın olmasının təəssüf doğurduğunu söyləyib.

Professor G.Gəraybəyli yekun nitqində burada səslənən irad və təkliflərin şöbənin gələcək fəaliyyətində nəzərə alınacağına əminliyini ifadə edib.




Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə də baxılıb. Elmi tədqiqatların idarə olunması departamentinin Əsasnaməsi, ATU-nun kafedralarında çalışan baş laborant, assistent, baş müəllim və dosentlərin hazırda tutduqları vəzifədən bir üst vəzifəyə keçmələri üçün lazım olan elmi və klinik meyarlar layihəsi, Azərbaycan Tibb Universitetinin Tədris Metodik Şurasının Əsasnaməsinin layihəsi, ATU-da çalışan alimlərin işlərini stimullaşdırmaq məqsədilə Q indeksli nüfuzlu beynəlxalq jurnallarda çap olunan hər bir məqaləyə görə verilən mükafat məbləği təsdiqlənib.

Daha sonra ATU-nun professor-müəllim, tədris-köməkçi, mühəndis-texniki heyəti və inzibati-təsərrüfat işçilərinin vəzifə maaşlarının və əlavə əməkhaqqının 2025-cü il yanvarın 1-dən orta hesabla 20% artırılmasına razılıq verən Elmi Şura, müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# HİK sədri Türkiyədə saziş imzalanmasında iştirak edib

**Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi Türkiyə ilə əlaqələri genişləndirir. Bu günlərdə Antalyada Komitə ilə Türkiyənin Sağlıq və Sosial Hizmətlər Kamu Görəvliləri Sendikası (Türk Sağlık-Sen) arasında əməkdaşlıq sazişi imzalanıb.**




İmzalanma mərasimində Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov da iştirak edib. C.Qasımovun sözlərinə görə, sazişin məqsədi tərəflər arasında əməkdaşlığın inkişaf etdirilərək möhkəmləndirilməsi, birgə fəaliyyətin təşkili, təcrübə və informasiya mübadiləsinin qurulmasından ibarətdir. Bu sənəd, həmçinin əmək hüquqlarının müdafiəsi, üzvlərin sağlamlıqlarının qorunması, mədəni-kütləvi və idman tədbirlərinin təşkili və digər istiqamətlər üzrə qarşılıqlı fəaliyyəti nəzərdə tutur.

# Əqli Mülkiyyət Agentliyinin nümayəndələri ATU-da olub

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin (ATU) nümayəndələri ilə Əqli Mülkiyyət Agentliyinin rəsmiləri arasında görüş keçirilib.**



Görüşdə Agentlik sədrinin müşaviri Gülnar Rüstəmova, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin İxtira, faydalı model və sənaye nümunəsinin ekspertizası şöbəsinin müdiri Sevinc Zeynalova iştirak ediblər.

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultanova qonaqlara universitetimizin elmi-tədqiqat istiqamətində əldə etdiyi nailiyyətlərdən danışıb, gələcək planlar haqda məlumat verib.

Görüş zamanı əməkdaşlıq perspektivləri ətraflı müzakirə edilib. Qonaqlar, həmçinin prorektorluq nəzdində fəaliyyət göstərən Elmi departamentin işi ilə tanış olublar.

# ATU "Kosmik tibbin əsasları" adlı beynəlxalq təlimdə təmsil olunub




**Azərbaycanda ilk dəfə "Azərkosmos" və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İCESCO) təşkilatçılığı ilə "Kosmik tibbin əsasları" mövzusunda beynəlxalq təlim keçirilib.**

Təlimdə Azərbaycan Respublikası Kosmik Agentliyinin ("Azərkosmos") İdarə Heyətinin sədri Saməddin Əsədov, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev, Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru Nazim Pənahov, İSESCO-nun Bakı ofisinin direktor müavini, Azərbaycan Hərbi Cərrahiyyə Cəmiyyətinin və ABŞ-ın tibb, fizika və kosmos sahəsi üzrə ixtisaslaşmış professorları iştirak edib.




Tədbirdə çıxış edən professor Nazim Pənahov qaldırılan mövzuların əhəmiyyətindən və gələcəyin həkimləri olan universitet tələbələrinin bundan faydalana biləcəyindən danışıb.

Konfransda ATU-dan II Müalicə-profilaktika fakültəsinin dekan müavini, dosent Arzu Bəydəmirova, Hərbi səhra cərrahiyyəsi kafedrasının müdiri, tibb xidməti polkovnik-leytenantı Şahin Əliyev, Terapevtik stomatologiya kafedrasının dosenti Ayət Cəfərova, İctimai səhiyyə fakültəsinin akademik məsləhətçisi Zümrüd Abaszadə və Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının assistenti Sevinc Musayeva, eləcə də Stomatologiya, İctimai səhiyyə, Əczaçılıq fakültələrinin tələbələri fəal iştirak edib, təlimlərə qatılıblar.

Bu unikal təlimdə iştirakçılara kosmik tibbin əsasları, mikroqravitasiyaya uyğunlaşma, kosmosda tibbi monitorinq, teletibb, psixoloji yanaşmalar və təlimlər, ürək-damar adaptasiyası, skelet sistemləri, əzələ və sümük quruluşu, görmə dəyişiklikləri, nevroloji dəyişikliklər və digər mövzularda məlumatlar verilib.

**Dekabrın 18-də Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə "Antibiotiklər. Miflər və həqiqətlər" mövzusunda təlim xarakteri daşıyan interaktiv tədbir keçirilib. Tədbirin məqsədi antibiotiklərdən lazımi şəkildə istifadə etməklə onların effektivliyinin qorunub saxlanması istiqamətində maarifləndirmə işinin aparılması olub.**

# "Antibiotiklər. Miflər və həqiqətlər"

## Prorektor Mahir Səfərov: Antibiotiklərdən lüzumsuz istifadənin qarşısı alınmalıdır

Tədbiri giriş sözü ilə açan ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərov universitetdə bu istiqamətdə ənənəvi olaraq həyata keçirilən təbliğat-təşviqat xarakterli tədbirlərin əhəmiyyətini vurğulayıb və görülən işlərin tələbələrin həyatında böyük rol oynadığını bildirib. O, müzakirəyə çıxarılan mövzunun hər zaman aktual olduğunu, antibiotiklərdən lüzumsuz istifadənin qarşısını almağın və onların pasiyentə yalnız ixtisaslaşmış səhiyyə mütəxəssisi tərəfindən təyin olunmasının vacibliyini diqqətə çatdırıb. Toplantının işinə uğurlar arzulayan prorektor, tədbirin yüksək səviyyədə təşkilinə görə İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyevaya, digər təşkilatçılara və qonaqlara təşəkkürünü bildirib.

Sonra Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin nümayəndələri Cəvahir Süleymanova, Marçello Gelornini, Olqa Grintsova və baçqaları fikirlərini bölüşüblər. Onlar ÜST-ün tövsiyə və tələblərinə ölkəmizdə ciddi əməl olunduğunu, səhiyyə sistemində aparılan islahatların yüksək qiymətləndirildiyini deyiblər. Çıxışlarda bildirilib ki, ÜST-ün əsas məqsədi müxtəlif ölkələrə dəstək olmaq, yerli ekspertlərin bilik və bacarıqlarının artırılması məqsədilə təlimlər keçirməkdir. Məlumat verilib ki, BMT sistemində beynəlxalq səhiyyə məsələlərini əlaqələndirən bu təşkilatın ekspertləri səhiyyə üzrə rəhbər müddəa və standartlar hazırlayır, dövlətlərə səhiyyə sahəsindəki problemlərin həllində köməklik göstərir, habelə bu sahədə elmi tədqiqatları dəstəkləyir və təşviq edir. Çıxışlarda o da vurğulanıb ki, ölkəmiz 1992-ci ildə ÜST-ə üzv qəbul olunub.





İSİM-in Təlim-resurs şöbəsinin həkimi Pərvin Quliyeva "Antibiotiklər. Miflər və həqiqətlər" mövzusunda geniş təqdimatla çıxış edərək bildirib ki, antibiotikə qarşı davamlılığın güclənməsi qlobal sağlamlığın üzləşdiyi əsas təhlükələrdən biridir: "Antibiotiklər viruslar tərəfindən törədilən qrip və ya soyuqdəymə kimi xəstəliklər zamanı istifadə olunmur, çünki antibiotiklər viruslara təsir göstərmir. Bakteriya hər hansı bir antibiotikin təsirindən qorunma qabiliyyətini inkişaf etdirirsə, deməli, o, antibiotiklərə davamlılıq əldə edib. Yəni həmin antibiotik artıq bu bakteriyaya təsir göstərmir. İllər ərzində bir çox xəstəliklər törədən bakteriyanın müxtəlif antibiotiklərə davamlı olması onların həddindən çox və ya qeyri-düzgün istifadəsinin nəticəsidir. Antibiotiklərə davamlılığın yaranması çox narahatedici haldır, çünki mövcud olan bir çox antibiotiklər artıq bakteriyalara təsir göstərmir və bakteriya mənşəli xəstəliklərin müalicəsi çətinləşir".

Tədbir "Antibiotiklər barədə maraqlı məlumatlar" mövzusunda viktorina ilə davam edib. Tələbələr antibiotiklərin düzgün istifadəsi ilə bağlı sualları cavablandıraraq bu haqda geniş məlumat əldə ediblər.

Yekunda tədbirin fəal iştirakçılarına və oyunda qalib gələnlərə xatirə hədiyyələri, maarifləndirici materiallar təqdim olunub.

# Transxəzər Beynəlxalq HPB Cərrahiyyəsi Assosiasiyası yaradılıb

## Hələlik 6 ölkənin qoşulduğu təşkilatın Azərbaycanda təsis olunması yüksək qiymətləndirilib

**Dekabrın 20-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında Transxəzər Beynəlxalq HPB Cərrahiyyəsi Assosiasiyası və Türkiyə-Azərbaycan HPB Cərrahiyyəsi Dərnəyinin birgə təşkilatçılığı ilə "Minimal İnvaziv Pankreas Cərrahiyyəsi" mövzusunda I Transxəzər Beynəlxalq HPB Cərrahiyyəsi konqresi və 3-cü Türkiyə-Azərbaycan HPB Cərrahiyyəsi konfransı keçirilib.**





Toplantıda ilk olaraq Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin Dövlət himnləri səsləndirilib. Daha sonra ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultanova konfransı açaraq, bu tədbirlərin ilk dəfə olaraq ölkəmizdə keçirilməsini böyük hadisə adlandırıb. Azərbaycan və Türkiyə arasında hər sahədə olduğu kimi, səhiyyə və təhsil istiqamətində də irimiqyaslı layihələrin icra edildiyini söyləyən xanım prorektor, bu tədbiri ikitərəfli əlaqələrə növbəti töhfə kimi qiymətləndirib. Beynəlxalq səviyyəli elmi konfransların təşkilinin bu sahədə çalışan mütəxəssislər üçün əhəmiyyətli olduğunu vurğulayan M.Sultanova universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını iştirakçılara çatdırıb və toplantının işinə uğurlar diləyib.

Tədbirdə çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov konfransın tibbin ən mühüm məsələlərindən biri olan mədəaltı vəzin invaziv cərrahiyyəsinə həsr edildiyini və mövzunun müasir tibb üçün böyük əhəmiyyət daşıdığını bildirib. O, hepato-pankreato-biliar cərrahiyyəsinin ümumi cərrahiyyənin çox mürəkkəb və eyni zamanda sürətlə inkişaf edən sahələrindən biri olduğunu qeyd edib. Əlavə edib ki, tibbi texnologiyalar təkmilləşdikcə, bu sahədə patologiyaların aşkarlanması da artıb, müvafiq olaraq diaqnostik və müalicə tədbirləri də genişlənib. Nazir müavini praktik və fikir mübadiləsi aparılması, müzakirələrin təşkili baxımından belə tədbirlərin böyük önəm daşıdığını söyləyib. Ölkəmizin beynəlxalq aləmdə qlobal tədbirlərə ev sahibliyi etdiyini deyən N.Zeynalov bildirib ki, Xəzəryanı ölkələrin bu cür yüksək səviyyəli təşkilatının məhz ölkəmizdə təsis edilməsi çox təqdirəlayiqdir. O, təşkilatın yaranmasında professor Nuru Bayramovun zəhmətini xüsusi vurğulayıb və onu qurumun prezidenti seçilməsi münasibətilə təbrik edərək, uğurlar arzulayıb.

Transxəzər Beynəlxalq HPB Cərrahiyyəsi Assosiasiyasının prezidenti, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov Azərbaycan və Türkiyə arasında hərtərəfli münasibətlərin tibb təhsilinə də müsbət təsir etdiyini deyib. Assosiasiyanın yaranma səbəbləri və onun məqsədini açıqlayan natiq bu işdə əməyi keçən hər kəsə minnətdarlığını bildirib. O, çıxışında Türk HPB Cərrahiyyəsi Dərnəyi ilə I Cərrahi xəstəliklər kafedrası arasında uzunmüddətli və sıx əlaqələrin olduğunu deyərək, indiyədək bir çox ortaq layihələrə imza atıldığını xatırladıb, görülən işlərin davamlı olacağını söyləyib.

Türk HPB Cərrahiyyəsi Dərnəyinin prezidenti, professor Mustafa Kerem də bu sahədə ölkələrimiz arasında görülən irimiqyaslı işlərdən danışıb. O, Transxəzər Beynəlxalq HPB Cərrahiyyəsi Assosiasiyasının təşəkkül tapmasının Xəzərətrafı ölkələrin mütəxəssislərinin geniş və səmərəli əlaqələrinin qurulmasına təkan verəcəyini söyləyib. Bu assosiasiyanın əhəmiyyətindən bəhs edən natiq bildirib ki, bura hələlik 6 ölkə - Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Gürcüstan və Qırğızıstan qoşulub. Bu sahədə çalışan həkimləri assosiasiyaya üzv olmağa çağıran M.Kerem əlavə edib ki, təşkilatın coğrafiyası və imkanları genişləndikcə, bölgə mütəxəssislərinin Avropaya bağlanması, eləcə də qabaqcıl ölkələrin təcrübəsindən faydalanması mümkün olacaq.

Daha sonra tədbirdə İtaliyadan E-AHPBA prezidenti Giovanni Marchegiani və Hollandiyadan E-AHPBA prezidenti Marc Besselnik onlayn çıxış ediblər.

Rəsmi çıxışlardan sonra konfrans öz işini "Minimal invaziv robotik mədəaltı vəzi cərrahiyyəsinin gələcəyi", "Pankreas xərçəngi cərrahiyyəsində sinir pleksunun disseksiyasının əhəmiyyəti", "Laparoskopik Whipple və penk metodları ilə invaginasiya texnikası ilə təcrübəniz", "Distal pankreas şişlərində minimal invaziv dalağı qoruyan cərrahiyyə", "Robotik distal pankreatektomiya" və s. mövzularda panel sessiyaları ilə davam etdirib.

**M.ƏLƏKBƏRLİ**

# Qış sessiyasının təşkili müzakirə olunub

**Qarşıdan gələn imtahan sessiyasına hazırlıqla bağlı universitet rəhbərliyinin iştirakı ilə tədbir keçirilib. Görüşdə dekabrın 29-dan etibarən başlayan qış imtahan sessiyasının effektiv təşkili, prosesin icrası ilə əlaqəli müxtəlif məsələlər müzakirə olunub.**



Tədris işləri üzrə prorektor, professor Nazim Pənahov universitetdə tədris prosesinin təşkili, təhsilin keyfiyyətinin artırılması məqsədilə həyata keçirilən islahatlar və yeniliklər barədə məlumat verib. İmtahan sessiyasının tədris prosesinin vacib hissəsi olduğunu qeyd edən prorektor, tələbələrin bu prosesə ciddi hazırlığın önəmini vurğulayıb. Tədris departamentin rəhbəri, dosent Kamandar Yaqubov sessiya zamanı ən çox rast gəlinən problemlərdən danışıb və onların həllinə dair öz fikirlərini səsləndirib. O, imtahan prosesinin təşkilatçıları və nəzarətçilərin öhdəliklərini xatırladıb, qayda pozuntularının qarşısının alınması üçün əhəmiyyətli məqamlara diqqət çəkib.

İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərova da imtahan sessiyası zamanı daha çox rast gəlinən pozuntuları diqqətə çatdırıb. Bu cür halların qarşısının alınması üçün tələbələr arasında mütəmadi maarifləndirmə işinin aparılmasının önəmli olduğunu bildirib. İmtahan-nəzarət qrupunun rəhbəri Pəri İsaqova isə imtahanların keçirilmə qaydaları, nəzarətçilərin fəaliyyəti ilə bağlı ən vacib məqamlardan danışıb. Görüşdə dekanlıqların və İmtahan Mərkəzinin nümayəndələri iştirak edib.

# OSKİ imtahanlarında faydalı yeniliklər

Tibb və sağlamlıq elmləri təhsili kafedrasında 19 dekabrdan etibarən Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) keçirilir. Hər il imtahanda yeniliklər edən kafedra, bu il də stansiyaları müxtəlif otaqlarda hazırlamaqla standarta yaxın imtahanın təşkilinə, elektron dəyərləndirməyə (planşetlərlə) keçid etməklə isə qiymətləndirmənin şəffaflığına nail olub. II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli hər il olduğu kimi, bu il də imtahanın gedişini diqqətdə saxlayaraq tələbələrlə söhbət aparıb, onların rəylərini öyrənib. Dekan hal-hazırda davam edən, Müalicə-profilaktika fakültəsinin I kursunda tədris olunan klinik bacarıq-1 dərslərində tələbələrin hansı bacarıqlara yiyələndikləri, nəzəri biliklərini praktikada necə tətbiq etdiklərini və dərs prosesini izləyib.



Kafedranın müdiri, dosent Samir Cavadlı dekanı kafedrada həyata keçirilən digər yeniliklərlə də tanış edib. Bildirilib ki, kafedrada artıq "Pedaqoji peşəkarlığın inkişafı" təlimlərində ağıllı lövhələrdən, tələbələrin bəzi klinik bacarıqlarının tətbiqində isə VR-dən (virtual reallıq) istifadə ediləcək. VR-in işlənmə prinsipi, mövcud ssenarilərlə tanış olan dekan, bu yeniliyin tələbələr üçün faydalı olacağını diqqətə çatdırıb.

Qeyd edək ki, artıq I semestrdən tələbələr təməl həyat dəstəyi dərslərində sərbəst şəkildə Avtomatik Eksternal Defibrilyatorun (AED) tətbiqi bacarığına da yiyələniblər.

**ATU-nun III kurs tələbələri Ailə təbabəti kafedrasında klinik bacarıqlar fənnindən imtahan (OSKİ) veriblər. İmtahanın gedişini universitetin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov, Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov izləyib, tələbələr üçün yaradılan şəraitlə tanış olublar.**



# III kurs tələbələri klinik bacarıqlar fənnindən imtahan verib

Professor N.Pənahov "Təbib" qəzetinə verdiyi açıqlamada imtahanın gedişindən və tələbələrə yaradılan şəraitdən razı qaldığını bildirib: "Əslində imtahanın bu formatda keçirilməsinin özü çox gözəl səmərə verən bir yenilikdir. Çünki Azərbaycan Tibb Universitetinin tələbələri üçün klinik bacarıqlar fənlərini test suallarına salıb, test şəklində dəyərləndirmək çətinliklər yaradırdı. İllərlə aparılan müşahidələr göstərdi ki, bəzi fənlərdə, o cümlədən klinik fənlərdə yeni bir formatın tətbiqinə zərurət yaranıb.

İmtahanlar, demək olar ki, yaxşı təşkil olunub, hər kəs 9 stansiyadan keçir. Müəllimlər ayrı-ayrılıqda tələbələri sorğu-sual edirlər. Tələbələr verilən suallara mulyajlar üzərində cavab verir, hər stansiyadan toplanan bal yekunda imtahan balı kimi dəyərləndirilir".

Kafedra müdiri, professor İbrahim İsayev isə universitetdə həyata keçirilən yeniliklərdən, bu yeniliklərin tədrisin keyfiyyətinə müsbət təsirindən, universitet rəhbərliyi tərəfindən tələbələrə yaradılan şəraitdən söhbət açıb. Bildirib ki, son illər universitetdə aparılan tədrisin yenidən qurulması və sertifikasiyaların təsdiqi prosesi ilə əlaqədar, dünya akkreditasiya sisteminə daxil olmuşuq: "Təhsilin yenidən qurulmasına ehtiyac yaranmışdı. Bu, klinik fənlərdə xüsusilə önəmlidir. Keçən ildən etibarən bizim kafedramızda klinik bacarıq fənn imtahanları OSKİ şəklində götürülür. 9 stansiyanın hər birində tələbə konkret bilir ki, nəyə cavab verəcək".

İ.İsayev qeyd edib ki, əvvəllər tələbələrimiz üçün elektrokardioqramın çəkilməsi, ötürülməsi çətinliklər törədirdi. Rektorun göstərişi ilə klinik müayinə fənninə əlavə saatlar verildi və əlavə avadanlıqlar alındı. Artıq tələbələrimizin hər biri tədris müddətində kardioqram çəkir və onun qiymətləndirilməsini apara bilir: "İki stansiyanı elektrokardioqrama aid etmişik. Ailə təbabəti kafedrası olaraq, gələcəkdə Tədris Departamenti qarşısında məsələ qaldırmaq istəyirik ki, 4,5,6-cı kurslarda da aralıq qiymətləndirməni OSKİ şəklində aparaq. Çünki klinik bacarıqların öyrənilməsi üçün im tahanların bu formatda aparılması daha məqsədəuyğundur".

**Elmi Tədqiqatların İdarəolunması Departamentində EBSCO Beynəlxalq Tədqiqatlar və Jurnallar Platformasının regional təmsilçisi Aleksandr Rıtov ilə görüş keçirilib. Məlumat verilib ki, EBSCO beynəlxalq tədqiqatlar və jurnallar, o cümlədən elektron jurnallar, geniş kitab kolleksiyası olan aparıcı platformadır.**

# EBSCO platformasının regional təmsilçisi universitetimizdə olub

Görüşdə EBSCO bazasının tibb məhsulları və eləcə də "Dynamed" məhsulunun imkanları, üstünlükləri, həmçinin tibb təhsilində istifadə qaydaları təqdim olunub. Söhbət əsnasında qeyd edilib ki, bu məhsul praktik həkimlər üçün geniş imkanlar yaradır və düzgün müalicə taktikasının seçilməsində həkimlərə kömək də kimi istifadə olunur. Hazırda Qazaxıstan, Qırğızıstan, Polşa və başqa ölkələrin tibb universitetləri keyfiyyətli məzmun və texnologiya vasitəsi kimi öz tədqiqat işlərində bu platformadan geniş istifadə edir. Bundan başqa, "Dynamed" universitetlər, kolleclər və xəstəxanalarda bir məlumat mənbəyi kimi, həmçinin tibb təhsili aləti kimi istifadə olunur.

A.Rıtov söhbət zamanı Azərbaycan Tibb Universitetinə ilk aylarda "Dynamed" məhsuluna güzəştli şərtlər ilə abunəçiliyi test rejimində təklif edib. ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultanova A.Rıtova ətraflı məlumata görə təşəkkür edib və gələcəkdə səmərəli əməkdaşlığa ümidvar olduğunu bildirib.

# Hərbi tibb fakültəsində rezidentlərin buraxılış mərasimi keçirilib

## Gənc hərbi həkimlərin Milli Ordu sıralarında ləyaqətlə xidmət edəcəyinə əminlik vurğulanıb






**Dekabrın 20-də ATU-nun Hərbi tibb fakültəsində rezidentlərin buraxılış mərasimi keçirilib. Öncə Ulu Öndər Heydər Əliyev və Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsi yad edilib. Dövlət Himnimiz səsləndirildikdən sonra aparıcı Mələk İmanova bu günün fakültənin həyatında əlamətdar bir tarix olduğunu deyib.**

O bildirib ki, 22 nəfər hərbi həkim Hərbi tibb fakültəsinin Rezidentura və təkmilləşdirmə kursunda dərin biliklərə yiyələnərək ixtisaslaşıb və təyinatla ordu sıralarına yollanır.

Məzunları təbrik edən fakültə rəisi vəzifəsini icra edən tibb xidməti polkovniki Məharət Rzayev xatırladıb ki, fakültə 2000-ci ildə yaradılıb. Bunu Ulu Öndər Heydər Əliyevin Azərbaycan təbabətinə verdiyi ən böyük töhfələrdən biri kimi dəyərləndirib: "Bu onun uzaqgörən siyasətinin nəticəsi idi. Ulu Öndər bilirdi ki, torpaqlarımızın işğaldan azad olunması üçün hərbi həkimlərə böyük ehtiyacımız var. Onun layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsini Böyük Zəfərlə başa çatdırdı. Qələbənin əldə edilməsində fakültəmizin əməkdaşları və məzunlarının xüsusi payı var. Onlar döyüşlər zamanı böyük əzmkarlıq və cəsarətlə çoxsaylı yaralı hərbçinin həyatını xilas edib, təxliyəsi ilə məşğul olublar. Bu gün tədbirdə iştirak edən zabit və rezidentlərin çoxu Vətən müharibəsinin iştirakçılarıdır".

Milli Müdafiə Universiteti rektorunun müavini, Elmi Tədqiqat İnstitutunun direktoru, milli təhlükəsizlik və hərb elmləri üzrə fəlsəfə doktoru, general-mayor Arif Həsənov da öz çıxışında Hərbi tibb fakültəsinin Ulu Öndər tərəfindən yaradılmasının çox böyük tarixi əhəmiyyətə malik olduğunu bildirib: "Bu fakültənin yaradılması əvvəlcədən atılmış strateji addımlardan biri idi. Sizin kollektiviniz kiçik olmasına baxmayaraq, digər təhsil müəssisələri ilə müqayisədə mühüm və vacib tapşırıqları yerinə yetirən məzunların yetişdirilməsi ilə məşğuldur. Dünyada toxunulmaz üç sahə var ki, həmin sahələrdə heç vaxt güzəşt etmək olmaz. Onlardan biri təhsil, o biri tibb, digəri isə hərbi xidmətdir. Biz həkimlərdə bunların üçü də birləşib.

Qloballaşan dünyada elmimizlə önə çıxmağımız vacibdir. Bu səbəbdən siz hərbi həkimlərin də üzərinə böyük məsuliyyət düşür. Öz elmi araşdırmalarınız, ixtiralarınız, Vətənə sevginizlə bu işə töhfələrinizi verə bilərsiniz".

Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva Ulu Öndərin Azərbaycan xalqına çoxsaylı töhfələrindən biri kimi Milli Ordunun, ali hərbi məktəbin yaradılması və milli hərbi kadrların yetişdirilməsini vurğulayıb: "Fəxr edirəm ki, siz tarixdə sözünü demiş qalib ordunun zabitlərisiniz. Hərbçi və hərbi tibb kadrlarının yetişdirilməsi üçün xeyli zaman və gərgin əmək tələb olunur. Universitetimizin Rezidentura və magistratura şöbəsinin sizin mütəxəssis kimi yetişməyinizdə xidmətləri danılmazdır. Arzu edirəm ki, indən sonrakı dövr sülh şəraitində keçsin, siz də sülh dövrünün zabitləri kimi Vətənə xidmət edəsiniz".

Sonra Ədliyyə Nazirliyi hospitalının rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov çıxış edərək, bu günün onun üçün əziz və xüsusi bir gün olduğunu diqqətə çatdırıb: "Bu ilin avqust ayında ordudan tərxis olunmuşam. Amma burada əyləşən rezident məzunların təhsil müddəti mənim Hərbi tibb fakültəsinin rəisi olduğum dövrə düşüb. Sizin ixtisaslı hərbi həkim kimi yetişməyiniz üçün əlimizdən nə gəldisə, nə bacardıqsa, etdik. Hazırlığınızın mükəmməl olduğuna əminəm. Aranızda elmi araşdırmalarla məşğul ola biləcək kifayət qədər gənclər var. İstərdim ki, bu istiqamətdə də özünüzü sınayasınız. Hər birinizə uğurlar arzulayıram".

Məzun rezidentlər adından tibb xidməti kapitanı Rəhman Hüseynzadə çıxış edib. Bildirib ki, həm həkim, həm də hərbçi kimi iki ali peşənin yükünü çiynimizdə daşımağın məsuliyyəti başa düşürük: "Hərbi tibb fakültəsi istər ölkəmizdə, istərsə də qardaş Türkiyədə təhsil və təcrübə qazanmağımız üçün hər cür şərait yaratdı. Hərbi həkimlərimiz 44 günlük Vətən müharibəsində yaralılara tibbi yardımı güllə yağışı altında göstərərək, bu müqəddəs peşəni öz həyatlarından belə üstün tutduqlarını sübut etdilər. Şəhidlərimizin sayı həm də həkimlərimizin fədakarlığı sayəsində az oldu".

R.Hüseynzadə çıxışının sonunda hərbi həkim kimi yetişmələrində zəhməti keçən hər kəsə təşəkkürünü bildirib.

Tədbir zamanı məzun rezidentlərin hazırladığı video-rolik də nümayiş olunub.

Sonda fakültə rəisinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə baş köməkçisi, polkovnik-leytenant Yaqub Qasımov səhiyyə nazirinin əmrini oxuyub. Məzunlara plaket və döş nişanları təqdim olunub.

Buraxılış mərasimində Tibbi mikrobiologiya və immunologiya kafedrasının professoru Gülər Seyidova və kafedranın müəllimi, İctimai səhiyyə fakültəsinin həmkarlar təşkilatının sədri Səidə Hacıyeva fəxri qonaq qismində iştirak ediblər.

# Tanınmış alimin yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

## Professor Əzəm Ağayev gözəl insan, görkəmli alim, əsl vətənpərvər kimi xatırlanıb





**Dekabrın 24-də Azərbaycan Tibb Universitetində tibb elmləri doktoru, professor Əzəm Təyyar oğlu Ağayevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Konfransı giriş sözü ilə universitetin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov açıb.**

N.Pənahov əvvəlcə bildirib ki, bu gün Müzəffər Ali Baş Komandan, öz müdrik siyasəti ilə Azərbaycanı daim inkişaf etdirən, hamının sevimlisi cənab İlham Əliyevin də doğum günüdür. O bu münasibətlə özü, universitetin rəhbərliyi və kollektivi adından ölkə başçısını təbrik edib, ona möhkəm cansağlığı, işlərində müvəffəqiyyətlər arzulayıb. Sonra professor Ə.Ağayevlə bağlı xoş sözlərini və xatirələrini bölüşən prorektor, sözü ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyevaya verib.

Y.Hacıyeva mərhum yubilyarın keçdiyi zəngin həyat yolu barədə konfrans iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, bu nəcib insan, gözəl alim 1944-cü il iyulun 15-də Yardımlı rayonunun Primbel kəndində dünyaya göz açıb. 1952-ci ildə Primbel 7 illik məktəbinin 1-ci sinfini bitirib. 1953-cü ildə isə ailəsi ilə birgə Salyanın Qızılağac kəndinə köçüb və burada orta təhsilini davam etdirib. 1963-cü ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. 1969-cu ildə institutu fərqlənmə ilə bitirdiyinə görə onu Sosial gigiyena və səhiyyənin təşkili kafedrasında baş laborant vəzifəsində saxlayıblar. Ə.Ağayevin fəaliyyətinin çiçəklənən dövrü bundan sonra başlayıb: "Əzəm müəllim elə həmin ildə müsabiqə yolu ilə kafedrada aspiranturaya qəbul olunub. Öz ağlı, zəkası, insanpərvərliyi, dərin düşüncəsi, insanın ən ali xüsusiyyəti olan tərbiyəsi ilə seçilən Ə.Ağayev daim axtarışda olub, məhz zəhmətsevərliyi və dərin savadı ona aspiranturanı vaxtından qabaq başa vurmağa imkan verib".

Qısa müddətdə baş laborantdan rektor əvəzinə qədər böyük bir yol keçən Ə.Ağayev ömrünün ən məhsuldar dövründə - 50 yaşında dünyasını dəyişib.

ATU-nun III Cərrahi xəstəliklər kafedrasının professoru Məmməd Nəsirov, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru Qalib Qarayev, TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva, Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev yubilyarla bağlı xatirələrini səsləndiriblər.

Çıxışlarda Ə.Ağayev gözəl insan, görkəmli alim, inanclı şəxs, təşkilatçılıq bacarığı yüksək olan əsl vətənpərvər kimi yad edilib.

Sonda yubilyarın ailə üzvləri adından ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru, TƏBİB-in İxtisaslı tibbi xidmətlərin təşkili departamentinin rəhbəri, yubilyarın oğlu Anar Ağayev tədbirin təşkilatçıları və iştirakçılarına dərin təşəkkürünü bildirib. Ölkə başçısı İlham Əliyevə doğum günü münasibətilə öz təbriklərini çatdıran A.Ağayev, tədbirin keçirilməsi üçün yaratdığı şəraitə görə universitetin rektoru, professor Gəray Gəraybəyliyə minnətdarlığını ifadə edib.

Tədbir zamanı yubilyarın 80 illiyinə həsr olunmuş və kafedra müdiri Y.Hacıyevanın redaktorluğu ilə işıq üzü görmüş kitab iştirakçılara təqdim olunub.

# Əməkdaşlarımız Ankarada beynəlxalq konqresdən qayıdıb

**ATU-nun Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent Fəridə Əli, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri Şəhla Balayeva, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva və Patoloji fiziologiya kafedrasının bir qrup əməkdaşı dekabrın 5-dən 7-dək Türkiyənin Ankara şəhərində keçirilən 26-cı Beynəlxalq İctimai Sağlamlıq Konqresində (Uluslararası ve Ulusal Halk Sağlığı Konqresi) iştirak ediblər.**




Konqresdə ictimai sağlamlıq problemləri geniş müzakirə olunub, həmçinin qeyri-yoluxucu xəstəliklər və onların risk amilləri, ana və uşaq sağlamlığı, herontoloji problemlər, vaksinlər, iqlim dəyişikliyinin insan sağlamlığına təsiri və tibbin digər sahələrinə dair mövzularda çıxışlar dinlənilib.

Dünyanın bir çox ölkələrindən mütəxəssislərin iştirak etdiyi konqresdə dosent Şəhla Balayevanın "Tələbələrin həyat keyfiyyətinə və sağlamlığına təsir edən riskli davranışlar və həyat tərzi", Qidalanma və tibbi ekologiya kafedrasının baş müəllimi İlahə İslamzadənin "Azərbaycanda sağlam həyat tərzinin təbliği" mövzusunda məruzələri maraqla qarşılanıb və verilən suallar ətraflı cavablandırılıb. Dosent Yaqut Hacıyeva isə iclasda məruzə oxumaqla yanaşı, həm də moderator olub.

Üç gün davam edən beynəlxalq konqresin əsas hədəfi qabaqcıl ölkələrin təcrübələrini öyrənmək, müxtəlif səpkili mövzuların müzakirələrində yaxından iştirak etmək və ictimai sağlamlıq mövzusunun aktuallığını gündəmdə saxlamaqdan ibarət olub.

# Beynəlxalq konfransda çıxışlar böyük maraqla qarşılanıb

**12-14 dekabr 2024-cü il tarixlərində Ankarada İdman Elmləri Universitetində keçirilən İdman, Antropologiya, Qidalanma, Anatomiya və Radiologiya (SANAR 2024) üzrə beynəlxalq konfransda Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları müxtəlif elmi mövzularda məruzələrlə çıxış ediblər.**

Maraqlı elmi araşdırmaların müzakirə olunduğu tədbirdə əməkdaşlarımız tərəfindən V.B.Şadlinski, A.S.Abdullayev. G.E.Kərimzadə, N.T.Mövsümov, S.V.Şadlinskayanın tədqiq etdiyi insan kəllələri haqqında məlumat verilib. Beynəlxalq konfransda müxtəlif yaş dövrlərində insan kəllələrinin morfometrik parametrlərinin təyini, həmçinin fərqli hündürlük indekslərinə malik kəllələrdə üz kanalının məməyəbənzər seqmentinin uzunluğunun yaşa bağlı dəyişiklikləri, kəllə hündürlüyü ilə əlaqəsinin müəyyən edilməsi barədə söz açılıb. Həmçinin Babayeva R.E, Hüseynov B.M tərəfindən araşdırılan yoğun bağırsağın sinir kələfi qanqlionlarının morfoloji özəllikləri və bu məsələnin




əhəmiyyətindən bəhs olunub. Beynəlxalq konfransda V.B.Şadlinski, S.M.Rüstəmovanın təqdimatında Azərbaycanda yaşayan əhali arasında qalxanabənzər vəzinin morfometrik parametrləri haqqında ətraflı məlumat verilib, yaşla əlaqədar dəyişikliklər nəzərə çatdırılıb.

Əməkdaşlarımızın çıxışları Ankara Tibb Universitetinin professorları İbrahim Tekdemir, Ayhan Comert, Robert Gozil və digər tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

**İl ərzində ölkəmizdə müxtəlif bayramlar qeyd olunur. Yeni ilin qarşılanması onların arasında xüsusi yer tutur. Bu bayramın da əsas atributlarından biri zəngin süfrələrdir. Milli xörəklərimizin bəzədiyi süfrələr vazkeçilməz olsa da, qidalanmanın faydası ilə yanaşı, sağlamlığa zərər verə bilməsi də diqqətdən qaçırılmamalıdır.**

# Bayram süfrəsi insan orqanizmi üçün zərərli yox, faydalı olmalıdır

## Dosent Sevinc Fətullayeva tətil günlərində qidalanma ilə bağlı məsləhətlər verir



ATU-nun Qidalanma və tibbi ekologiya kafedrasının dosenti Sevinc Fətullayeva "Təbib" qəzetinə açıqlamasında bildirib ki, bayramqabağı bazarlıq zamanı ilk növbədə məhsulların istehsal və son istifadə tarixlərinə diqqət yetirmək lazımdır: "Çünki müxtəlif etiologiyalı qida zəhərlənmələri, mədə-bağırsaq pozulmaları baş verə bilər. Yeni ildən sonra ishal və bu kimi başqa problemlərlə qarşılaşmamaq üçün məhsulun təzəliyinə, keyfiyyətinə, xörəklərin çoxçeşidli olmasına, xüsusən salatların hazırlanmasına diqqət etmək vacibdir. Biz azərbaycanlılar süfrədə iki-üç növ salat, balıq, toyuq, aş, kabab və s. olmasını xoşlayırıq. Bu bolluq insan orqanizmi üçün zərərli deyil, faydalı olmalıdır. Yəni süfrədəki qidaları qəbul edən şəxslərdə sonradan başağrısı, qanda kreatinin qalxması, arterial təzyiqdə təhlükəli dəyişiklik, xroniki qastritlərin kəskinləşməsi, pankreatitlər, allergik reaksiyaların artması, ürəkbulanmalar və s. ciddi fəsadlar ortaya çıxa bilər. Ona görə də süfrədəki təamların hər birindən dadmaq istəyən insanlara miqdarı gözləmək tövsiyə edilir. Çünki salatlar və xörəklərin ardınca şirniyyatlar, tortlar da qəbul olunur.

Ümumiyyətlə, yağlı yeməklərdən kənar durmaq və sobada hazırlanan xörəklərə üstünlük vermək lazımdır. Qazlı içkilərin çox miqdarda qəbulu da məsləhət görülmür. Daha çox təbii üsulla hazırlanmış kompotlar içilməli, çay süfrəsində limondan istifadə olunmalıdır".

Sözünə davam edən mütəxəssis, uşaqları da yaddan çıxarmayıb: "Onlara mayonezli salat verməkdənsə xüsusi desertlər hazırlamaq məsləhətdir. Yeni ildə uşaqlara xüsusi qutularda hazır hədiyyələr alınır. Qutularda olan şirniyyatların tərkibində həddən çox qatqı maddələri mövcuddur. Bu isə onlarda şirniyyatdan asılılıq yaranmasına səbəb olur. Belə məhsulların üzərində adətən istifadə müddəti də qeyd edilmədiyindən, uşaqları bayram günlərində bu cür qidalardan uzaq tutmağa çalışmaq lazımdır. Yaxşı olar ki, ev şəraitində hazırlanan şirniyyatlardan istifadə edilsin. Eyni zamanda uşaqlar tərəfindən kalorili yeməklərin, hazır şirniyyatların və qazlı içkilərin qəbulu da şəkərdən asılılığa səbəb ola bilər ki, bu da gələcəkdə piylənmə, şəkər, hormonal pozğunluqlar kimi problemləri tətikləyir. Nəinki uşaqlar, həm də valideynlər belə məsələlərə önəm verməlidir. Qida mədəniyyəti insanda hələ uşaq vaxtlarından formalaşdırılmalıdır. Valideynlər uşaqlara bu cür qidaların zərərli olmasını izah etməli və onlardan uzaq tutmalıdırlar".

S.Fətullayevanın sözlərinə görə, turşulardan istifadəyə xüsusi diqqət yetirmək lazımdır: "Xüsusilə evdə hazırlanmış turşulara. Əgər onlar düzgün qaydada qoyulmayıbsa, hər hansı çürük və ya əzik tərəvəzlərdən hazırlanıbsa, bankada şişmə və ya köpüklənmə varsa, suyunun rəngi bulanıqdırsa, bu turşulardan istifadə etmək olmaz".

Eləcə də xörəkləri çox saxladıqdan sonra yenidən yeyilməsini məsləhət görməyən Sevinc xanım deyib ki, ümumiyyətlə, yeməklər süfrədə bir-iki saat qaldıqdan sonra onların içərisində bakteriyalar inkişaf edir və daha sonra həmin yemək soyuducuya qoyulub təkrar yeyiləndə zəhərlənmələrə səbəb ola bilər. Buna görə də xörəklərin az hazırlanması daha yaxşı olardı. Ən çox zəhərlənmə halları ət məhsullarından olur - istər mal-qara, istərsə də quş və ya balıq əti. Onlar mütləq yalnız bir dəfə dondurulmalı və yaxşı bişirilməlidir.

Bayram süfrəsindən sağlam və yüksək əhvalla qalxmaq üçün bu məsləhətlərə riayət etmək kifayətdir. Qidalanma ilə yanaşı, yuxu rejimini, gündəlik maye qəbulu miqdarını və fiziki aktivliyi də diqqətdə saxlamaq lazımdır.

**Gəncədə təşkil olunan, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının həkim-pediatrlarının da iştirak etdiyi “Pediatriyanın aktual problemləri” mövzusunda konfrans Azərbaycan pediatriyasının inkişafına xidmət edən ən önəmli görüşlərdən biri kimi yadda qalıb.**

# Azərbaycan Pediatrlar Assosiasiyası silsilə tədbirlər keçirir



200-ə yaxın iştirakçının qatıldığı və “Lasomed Group” şirkətinin texniki dəstəyilə təşkil olunan konfransda Azərbaycan Tibb Universiteti, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və Milli Hematologiya və Transfuziologiya Mərkəzinin alim və praktik həkimləri, uşaq sağlamlığı sahəsində çalışan mütəxəssislər pediatriyanın müxtəlif sahələrinə dair aktual məsələləri işıqlandırıblar.

Tədbirin əsas məqsədi regionlarda uşaq sağlamlığının qorunmasında mövcud problemləri müəyyənləşdirmək və onların həlli istiqamətində yeni yanaşmalar təqdim etmək, eyni zamanda pediatrik xəstəliklərin erkən diaqnostikası və effektiv müalicəsinə dair strategiyaları müzakirəyə çıxarmaq olub.

Konfransı giriş söz ilə açan Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə APA-nın tarixi və səhiyyəmizdəki rolu haqqında qısa məlumat verib. Qeyd edib ki, 1930-cu ildə yaradılmış Assosiasiya ölkədə ana və uşaq sağlamlığı sahəsində standartların hazırlanması, tibbi xidmət, təhsil proqramları və maarifləndirmə kampaniyalarının təşkili işində əvəzsiz rol oynayır. Xüsusilə uşaq səhiyyəsinin inkişafına strateji önəm verən Ulu Öndər Heydər Əliyevin Assosiasiyanın fəaliyyətinə dəstəyi sayəsində APA ölkədə uşaq sağlamlığının qorunması və pediatriyanın inkişafında mövqe nümayiş etdirən əsas təşkilatlardan birinə çevrilib. Ulu Öndərin irsi bu sahədə hələ də yolgöstərici əhəmiyyətə malikdir.

APA sədri bildirib ki, gələn il 95 illiyini qeyd edəcək təşkilat ötən illər ərzində təkcə yerli deyil, həm də beynəlxalq miqyasda tanınıb, beynəlxalq əməkdaşlıqların genişləndirilməsi istiqamətində mühüm işlər görüb.

Alim konfransda “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində "Ekologiyanın - ətraf mühitin uşaq sağlamlığına təsiri” və “Uşaqlarda kəskin bağırsaq infeksiyası” mövzularında məruzələrlə çıxış edib.

Konfransda həkim-pediatr Qoşqar İsmayılov “Uşaqlarda Eritema Multiforme”, dosent Ülviyyə Hacıyeva “Uşaqlarda pnevmoniyaların diaqnostika və müalicəsinə müasir yanaşma”, dosent Fəxriyyə Məmmədova “Erkən yaşlı uşaqların qidalandırılması: yeni aspektlər və yanaşmalar”, dosent Lalə Hidayətova “Postinfeksion sindromunun gastrointestinal təzahürləri”, dosent Nigar Hacıyeva “Kəskin respirator viruslar və ətraf mühit”, professor Mir Eldar Babayev “Pediatrik praktikada sümük illiyinin depressiyası ilə müşayiət olunan xəstəliklərin differensial diaqnostikası” və dosent Səbinə Cəfərova “COVID-19 keçirmiş uşaqlarda multisitem iltihabi sindromun klinik-immunoloji təzahürləri və gediş xüsusiyyətləri” mövzularında və digər mütəxəssislər çıxışlar ediblər.

Sonra Assosiasiyanın həkimləri region mütəxəssislərinə pediatrik praktikada ən çox rast gəlinən xəstəliklərlə bağlı master-klass keçiblər. Həmçinin həkim-mütəxəssislərə yeni pediatriya dərsliyi və hematoloji patologiya üzrə metodik tövsiyələr paylanılıb.

Elmi məruzələrdən əlavə, mütəxəssislərin uşaqlar arasında yayılmış xəstəliklərin erkən diaqnostikası və müalicəsi, peyvənd proqramlarının effektivliyinin artırılması, genetik və irsi xəstəliklərə yanaşmalar, qidalanma problemləri və onların təsirləri, yenidoğulmuşlarda reanimasiya və intensiv terapiya yeniliklərinə dair təcrübə paylaşımı ilə konfrans daha məhsuldar olub.

Konfransın nəticələrinə gəldikdə, APA-nın 95 illik yubileyi çərçivəsində bu regional tədbir ölkədə pediatriya sahəsinin inkişafı üçün yeni perspektivlər müəyyən edib. Burada müzakirə olunan məsələlər gələcəkdə uşaq sağlamlığına dair strategiyaların hazırlanmasına və tətbiqinə təkan verəcək.

Tədbirin yekununda regionlarda pediatrik xidmətlərin genişləndirilməsi üçün dövlət proqramlarının gücləndirilməsi, ixtisaslı kadrların yetişdirilməsi və regionlarda çalışmaları üçün stimullaşdırıcı tədbirlərin görülməsi, müasir texnologiyaların regionlara gətirilməsi, maarifləndirici kampaniyaların keçirilməsi və uşaqlar üçün peyvənd proqramlarının genişləndirilməsi kimi yeni təkliflər irəli sürülüb.

## “Azərbaycan Tibb Universiteti Jurnalı” yeni formatda yayımlanacaq

**ATU-nun Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşəbbüsü ilə “Azərbaycan Tibb Universiteti Jurnalı” (İSSN 2788-9807) 2025-ci ildə yeni formatda yayımlanacaq.**

Elektron şəkildə yayılan (www. atuj.az) jurnalın auditoriyasına bütün səviyyələrdə təhsil almış təcrübəli tibb, ictimai səhiyyə, stomatologiya və əczaçılıq mütəxəssisləri daxildir. Jurnalın ilk nömrəsi Azərbaycan Tibb Universitetinin 95 illiyinə həsr olunacaq.

Xatırladaq ki, “Azərbaycan Tibb Universiteti Jurnalı” Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 20.09.2024 il tarixli qərarı ilə tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilib. Bütün məqalələrə DOİ (digital object identifier) verilir. Nəşrlərə dair tələblərlə www.atuj.az saytında tanış olmaq olar. Hər hansı sual yaranarsa, Elmi Tədqiqatların İdarə Olunması Departamentinə müraciət edə bilərsiniz.

## Plagiat və ondan yayınmaq yolları barədə məlumat verilib

**Elmi Tədqiqatların İdarəolunması Departamentinin təşkilatçılığı ilə “Elmi tədqiqat işlərində plagiatdan yayınma” mövzusunda seminar keçirilib.**



Son vaxtlar sifarişli dissertasiya işləri, copy-paste və süni intellektin köməyi ilə yazılmış məqalələr, saxta elmi araşdırmaların sayı artır. Bu, qlobal fenomenə çevrilərək müasir təhsil və elmin keyfiyyətinə ciddi təhlükə yaradır. «Plagiat.pl» şirkətinin Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Fəridə Rzazadə tərəfindən bu problemləri özündə əks etdirən tədbir təşkil olunub.

F.Rzazadə seminar iştirakçılarına plagiat nədir, hansı məqamlar plagiat hesab edilmir, elmi işin təhlili zamanı nələrə diqqət olunmalıdır, antiplagiat proqramları və s. məsələlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. O həmçinin son vaxtlar süni intellektdən elmi işlərin yazılmasında geniş istifadə olunduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, “Plagiat.pl” şirkəti 2002-ci ildə yaradılıb, 20 ölkədə (Polşa, Almaniya, İspaniya, Ukrayna, Rumıniya, Filippin, Gürcüstan, Bolqarıstan, Azərbaycan və s.) fəaliyyət göstərir və 1000-dən çox universitet, 200 kollec, 200 nəşriyyat ilə əməkdaşlıq edir. Şirkət StrikePlagiarism.com platformasının köməyi ilə elmi-tədqiqat işlərində plagiatlığın qarşısının alınmasında, istinadların düzgün göstərilməsində elmi tədqiqatçılara, gənc alimlərə dəstək olur.

# Psixoloqun məruzəsi tələbələr tərəfindən maraqla qarşılanıb

**Tələbə Həmkarlar İttifaqı Komitəsi və Komitənin nəzdində fəaliyyət göstərən “Şəxsi inkişaf və psixoloji təlimlər” klubunun təşkilatçılığı ilə növbəti seminar keçirilib. Bu dəfə Azərbaycan Tibb Universitetinin Psixoloji Yardım Mərkəzinin rəhbəri, MEM Psixoloji Mərkəzinin klinik psixoloqu, psixo-terapevt Günel Abbasova tələbələrin görüşünə gəlib.**





Tədbiri Klubun rəhbəri və yaradıcısı Nəriman İskəndərov açaraq, bu dəfə də ənənələrinə sadiq qaldığını bildirib: “Həmişəki kimi, bu gün də maraqlı mövzu ilə sizin qarşınızdayıq. Günel xanımla bir neçə mövzu müəyyən etdik və onlardan hansını seçməyi sizlərin ixtiyarına buraxdıq. Səsverməyə əsasən ən çox səs toplayan “Şəxsi sərhədlərimi necə qoruya bilərəm?” mövzusu oldu”.

G.Abbasova mövzunun aktuallığına toxunaraq, bildirib ki, hansımızın düşüncələrində problem olarsa, onda özümüzə güvən də aşağı olacaq: “Bu halda şəxsi sərhədlərimizi qoruya bilməyəcəyik. Düşüncələrimiz normal olmasa, düşüncə xətalarımız çox olsa, depressiyaya düşəcəyik. Çünki hisslərimiz fikrimizlə bağlıdır. Şəxsi sərhədlərimizin qorunması həm də özümüzü tanımağımızdan keçir”.

Psixoloq, həmçinin insanın necə idarə olunmasından, ətraf mühitin insanın formalaşmasına təsirindən və s. söhbət açıb. Onun hərtərəfli və əhatəli çıxışı tələbələr tərəfindən maraqla qarşılanb.

Seminar diskussiya şəraitində işini başa çatdırıb, tələbələri maraqlandıran suallara ətraflı cavab verilib.

Klubun rəhbəri N.İskəndərov tədbirin ərsəyə gəlməsində əməyi keçən klubun idarə heyətinə, o cümlədən dəstəyinə görə THİK-in sədri Qoşqar İsmayılova təşəkkürünü çatdırıb, görüşdə iştirak edən tələbə yoldaşlarını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibəti ilə təbrik edib.

# Əməkdaşımız nüfuzlu konfransda çıxış edib

**Dekabrın 14-15-də Bakıdakı Badamdar Hoteldə İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Türk Ginekoloji Onkologiya Dərnəyi və Rusiyanın “Fotek” şirkəti tərəfindən II “Ginekologiyada mübahisəli mövzular, kolposkopiya, servikal patologiyalar” konfransı keçirilib.**



Tədbirə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkim-ginekoloqu, I Mama-ginekologiya kafedrasının dosenti Sevinc İsmayılova moderatorluq edib. Əməkdaşımız, həmçinin “Hamiləlikdə uşaqlıq boynu sitologiyasının anormal olmasına yanaşma” mövzusunda çıxış edib.

Qeyd edək ki, konfransın əsas məqsədi ginekologiya, perinatologiya, terapiya, urologiya, onkologiya, cərrahiyyə, laboratoriya, müasir davamlı tibb təhsili proqramlarına əsasən tibbin müxtəlif sahələri üzrə təlimlərin keçirilməsi olub. Tədbir zamanı ekspertlərin aktual mövzularda məruzələri dinlənilib, iştirakçılar arasında geniş bilik və təcrübə mübadiləsi aparılıb.

# “Bir müfəttiş çağırır...”

## “HƏYAT” teatr klubunun yeni tamaşası alqışlarla qarşılanıb





**Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən “HƏYAT” teatr klubu indiyədək yaddaqalan uğurlara imza atıb. Bu dəfə isə yaradıcı heyət məşhur ingilis yazıçısı, dramaturqu, ssenaristi və yayımçısı John Boynton Priestleyin “Bir müfəttiş çağırır...” əsərini səhnələşdirib.**

Tamaşada intiharı düşünülən bir qadının hekayəsi canlandırılır. Əsas hadisələr isə bir iş adamının ailəsində cərəyan edir. Xudmani nişan mərasimində ailənin bütün üzvləri xoşbəxt görünürlər. Onlar özlərindən də adlı-sanlı, zəngin bir ailə ilə qohum olacaqlarından məmnundurlar və gələcək planlarından danışırlar. Ailə başçısı “bəzi şəxslər kommunizm və sosializm haqqında boş-boş danışır və yazırlar. Onların fikrincə, hamı bir-birinin etdiyi əməllərə görə məsuliyyət daşımalıdır. Amma mən sizə deyirəm ki, bir kişi yalnız ətrafındakılara diqqət etməli, ailəsini qorumalıdır. Qalanı boş söhbətlərdir” - deyə öz mülahizələrini söyləyir. Bu zaman xidmətçinin “bir müfəttiş çağırır” xəbəri məclisin ahəngini pozur. Çağırılmamış qonaq ailəni mühakimə edərək bütün gerçəkləri ortaya çıxarda bilir. Tamaşa boyu “kimdir günahkar” sualına cavab axtarılır. Eyni zamanda qəfil təşrif buyuran qonağın doğrudan da rəsmi müfəttiş, yoxsa müfəttiş rolunda çıxış edən şəxs olması ətrafında da müzakirələr gedir. Ancaq istənilən halda mahiyyət dəyişmir. Yəni cəzadan kənarda qalmaq günahsız olmaq anlamına gəlmir. Hər kəs düşünməlidir ki, “biz bir bədənin üzvləriyik”. Tamaşanın cəmiyyətə mesajı budur və əminliklə deyə bilərik ki, yaradıcı heyət öz hədəfinə çatıb.

“HƏYAT” teatr klubunun bədii rəhbəri və sədri Aytac Şükürlü bu tamaşanı hazırlayarkən tələbələrin detektiv janra marağını da nəzərə aldıqlarını deyib. Bildirib ki, İngiltərənin ən məşhur, sevilən tamaşalarından birinin Azərbaycan tamaşaçıları tərəfindən də bəyənilməsi seçimimizdə yanılmadığımızı göstərir.

Əvvəllər olduğu kimi, XII teatr mövsümündə də öz rollarını məharətlə oynayan tələbə aktyorlar Dilbər Rahim Əliyeva (müfəttiş Grace), Hüseyn Qarayev (Arthur Birling), İlahə Əliyeva (Sible Birling), Fidan Rəhmanlı (Sheila Birling), Mirhəsən Cəfərov (Eric Birling), Günel Bəşirova (Edna) və Aydın Çələbi (Gerald Croft) tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Tamaşadan sonra səhnə arxasına keçərək yaradıcı heyətlə görüşən universitetin rektoru, professor Gəray Gəraybəyli xüsusi istedadları ilə fərqlənən gəncləri təbrik edib, onların hər birinə yaradıcılıq uğurları arzulayıb.

Xatırladaq ki, quruluşçu rejissoru və baş inzibatçısı, musiqi tərtibatçısı Dilbər Rahim Əliyeva olan tamaşanın bədii rəhbəri Fidan Rəhmanlı, quruluşçu rəssamı Mirhəsən Cəfərov, geyim üzrə rəssamı İlahə Əliyeva, səs rejissoru Aydan Əhmədzadə, işıq üzrə rəssamı isə Nicat Əsədov və Səfa Eminlidir.

# ATU-nun müəllimi veteranlar birliyinin fəxri üzvü seçilib



Cərrahi xəstəliklər kafedrasının assistenti, t.ü.f.d Ziyalı Rzayev Vətən müharibəsi iştirakçılarına, qazilərə daim xüsusi diqqətlə yanaşan cərrahlarımızdandır. Onun fəaliyyəti Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi (AVMVİB) tərəfindən yüksək qiymətləndirilib. Belə ki, ATU-nun müəllimi AVMVİB-in fəxri üzvü adına layiq görülüb.

Qeyd edək ki, bundan əvvəl cərrah Z.Rzayev AVMVİB idarə heyətinin qərarına əsasən “Böyük zəfər” xatirə medalı ilə təltif olunmuşdu. Doktorun tibb aləmində peşəkarlığı ilə yanaşı, KİV ilə mütəmadi əməkdaşlığı da diqqətdən kənarda qalmayıb. Belə ki, bu il o, Azərbaycan KİV İşçiləri Həmkarlar İttifaqı tərəfindən media mükafatına da layiq görülüb.

Əməkdaşımızı təbrik edir, ona fəaliyyətində uğurlar arzulayırıq.

# “Söz” ədəbi-bədii kompozisiyasının premyerası olub

Dekabrın 17-də Şəhriyar adına Mədəniyyət Mərkəzində bəstəkar-yazar Fərahim Sadiqin Vətən müharibəsi qəhrəmanlarına həsr etdiyi layihə əsasında Aysu Türkelin səhnələşdirdiyi “Söz” adlı teatrlaşdırılmış ədəbi-bədii musiqili kompozisiyanın premyerası olub.

ATU-nun Hərbi tibb fakültəsinin rəhbər heyəti və kursantlarının da iştirak etdiyi tədbir böyük maraqla qarşılanıb. Müzəffər ordumuzun düşmən üzərində möhtəşəm qələbəsini, Vətənin cəsur övladlarının qəhrəmanlığını özündə əks etdirən kompozisiya tamaşaçılara qürurverici anlar yaşadıb.

# Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş turnir keçirilib

**Tədris İdman Kompleksində Bakı şəhər Gənclər və İdman İdarəsi və “Təbib” idman klubunun təşkilatçılığı ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş tələbələr arasında stolüstü tennis turniri keçirilib. Turnirdə ATU ilə yanaşı, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələri də daxil olmaqla 31 oğlan və 9 qız iştirak edib.**

“Təbib” idman klubunun sədri Qələndər Aslanov və Bakı şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayon gənclər və idman sektoru üzrə baş məsləhətçisi Sirac Axundov turniri açıq elan edərək tələbələrə uğurlar arzulayıblar. Belə yarışların tələbələrin semestr imtahanları öncəsi motivasiya olunmasında böyük əhəmiyyət daşıdığı bildirilib.



Açılış mərasimindən sonra yarışın baş hakimi Yaroslava Ağaməliyeva turnirə start verib. Qızların dairəvi sistem üzrə keçirilən turnirinin sonunda qaliblər müəyyənləşib. Səbinə Məmmədova (UNEC) I, Nərmin Davudova (ATU) II, Nilgün Əqiq (UNEC) III, oğlanlar arasında olimpiya sistemi üzrə keçirilən yarışlarda isə Barış Kaplan (ATU) I, Ərtoğrul Cəbrayılov (UNEC) II, Meysəm Qənbəri (ATU) III yerə layiq görülüb. Sonda qaliblər Bakı Şəhər Gənclər və İdman İdarəsinin təsis etdiyi medal, diplom və kuboklarla mükafatlandırılıb.

# Marketinq və startap mövzusunda təlim başa çatıb

Müalicə-profilaktika və Hərbi tibb fakültələrinin tələbələri üçün keçirilən "Tibdə marketinq və startap anlayışı: nəzəriyyədən uğurlu startapa gedən yol" adlı təlim başa çatıb.

Təlim 7 mühazirədən ibarət olub və bu müddət ərzində iştirakçılara tibbi marketinq, startapların yaradılması, ideyadan layihənin həyata keçirilməsinə qədərki proseslər, startap nümunələri, investisiyalar və Minimum Viyabil Məhsul (MVP) barədə ətraflı məlumat verilib.

Bu təlimlərin məqsədi tələbələrə tibdə marketinq və startap dünyası ilə bağlı praktik və nəzəri biliklər qazandırmaq idi.

# “İmadəddin Nəsiminin dili” adlı metodik vəsait çap olunub



Dahi Azərbaycan şairi Nəsiminin yaradıcılığı və onun əsərlərinin dilinə dair Azərbaycan dili kafedrasının müəllimi, İmtahan Mərkəzinin müdiri, f.f.d. Ülkər Cəfərovanın qələmə aldığı “İmadəddin Nəsiminin dili” adlı metodik vəsait çap olunub.

Kitabda Azərbaycan dilinin inkişafı tarixində xüsusi yeri olan Nəsiminin yaradıcılığına dair əhəmiyyətli fikirlər yer alıb. Müəllif bildirir ki, 700 il keçsə də, Nəsiminin əsərləri çağdaş Azərbaycan üçün önəm daşıyır, müasir oxucular onun şeirlərini asanlıqla başa düşürlər. Azərbaycan ədəbiyyatı tarixində bir səhifə açmış Nəsiminin dili təkcə Azərbaycan dilinin deyil, eyni zamanda orta əsr türk ədəbi dillərinin sonrakı inkişafına güclü təsir göstərmiş, onların yüksəlməsinə xidmət etmişdir. Azərbaycan tarixinin gərgin ictimai-siyasi bir şəraitində yaşamış Nəsimi yaradıcılığında dövrün mübariz ideyaları əksini tapmaqla bərabər, əsərlərinin dili də Azərbaycan ədəbi dilinin bir hissəsinin əksi və zəngin abidəsi kimi böyük əhəmiyyət kəsb edir. Nəsiminin yaradıcılığı sübut edir ki, XIV əsr Azərbaycan dili bir tərəfdən xalqın danışıq dilinə, digər tərəfdən isə klassik türk ədəbi dilinə, onun ənənələrinə əsaslanmışdır.

Dərc olunan metodik vəsaitdə təkcə Azərbaycan dilinin keçdiyi zəngin inkişaf yolunun izlərinə yox, eyni zamanda çoxəsrlik tarix və mədəniyyət nümunələrinə də rast gəlinir.

## Allah rəhmət eləsin!

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın professoru Əhməd Kazımova qayınanası
**Məstan xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nevrologiya kafedrasının əməkdaşları kafedranın dosenti
**Təmraz Nəbiyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları kafedra müdiri professor Gülnarə Əzizovaya əzizi
**Arif Məmmədovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının kollektivi kafedranın dosenti Kəmalə xanıma atası
**İbrahim müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Karate üzrə ölkə çempionatında ATU-nun tələbələri fərqlənib

**Dekabrın 15-də Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzində Gənclər və İdman Nazirliyi və Azərbaycan Karate Federasiyasının birgə təşkilatçılığı ilə full kontakt karate üzrə ölkə birinciliyi və çempionatı keçirilib.**



Çempionatda paytaxt Bakı ilə yanaşı, ölkənin müxtəlif regionlarından olan 300 idmançı iştirak edib. Azərbaycan Tibb Universitetinin “Təbib” idman klubunun karate bölməsində məşğul olan 5 nəfər tələbə-idmançı peşəkar idmançılar arasında keçirilən bu çempionatda öz güclərini sınayıb. Əməkdar məşqçi Qələndər Aslanovun yetirmələri olan tələbələr müxtəlif çəki dərəcələrində mükafata layiq görülüb. Belə ki, qadınlar arasında 55 kq çəki dərəcəsində Məhsa Palar bütün rəqiblərinə qalib gələrək I, Röşənək Muğanlı III, 65 kq çəkidə Zülfiyyə Məmmədli III, kişilər arasında 65 kq çəkidə Toğrul Abdullayev III və 75 kq çəki dərəcəsində Fuad Haqverdiyev III yerə layiq görülüb.

Qaliblər Gənclər və İdman Nazirliyinin təsis etdiyi medal və diplomla təltif olunub.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0022
Sayı 800